1_Layout 1 27.12.2018 14:08 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 25 (541)

28 dekabr 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ



1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəyliyi bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət edib. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Qurultaydan sonra Milli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib.

Yorulmaz fəaliyyəti ilə Heydər Əliyev siyasi fəlsə-fəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olmuş, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb.

Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir. Dünya Azərbaycanlılarının I Qurultayında yaradılmış Əlaqələndirmə Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilmiş iclası, toplantıda "Dünya Azərbaycanlılarının Xartiyası"nın qəbulu birlik və mütəşəkkilliyinin artması, tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsi, diaspor potensialının möhkəm amilə çevrilməsini göstərməklə yanaşı, müstəqil Azərbaycanın bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzi olduğunu da bir daha təsdiqləyib.

Həmrəylik Günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir. Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Onlar Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diasporları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirir, Azərbaycanın, xalqımızın tarixini yazır və nəsillərdən-nəsillərə ötürürlər.

***AZƏRTAC***

## DÜNYA AZƏRBAYCANLILARINA

**Əziz həmvətənlər!**
**Hörmətli soydaşlar!**

Milli birliyimizin rəmzi kimi hər il geniş qeyd etdiyimiz 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə sizi səmimi qəlbdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideyalarını yaşadan müstəqil dövlətimiz milli həmrəyliyin gücləndirilməsinə xüsusi əhəmiyyət verir, dünya azərbaycanlılarının mədəni-mənəvi birliyinin daha da möhkəmləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir. Biz xarici ölkələrdə məskunlaşmış həmvətənlərimizin doğma Azərbaycanla əlaqələrinin dərinləşdirilməsi və ümummilli məsələlərin həllində yaxından iştirakının təmin edilməsi istiqamətində irəli sürülən səmərəli təşəbbüslərə hər zaman dəstək veririk.

2018-ci il xalqımızın tarixində şərəfli yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin geniş şəkildə keçirilməsi ilə yaddaşlarda qalacaqdır. Belə əlamətdar yubileyin təntənə ilə qeyd edilməsi həmvətənlərimizin qəlbində azadlıq və istiqlal duyğularını, ölkəmizin zəngin tarixi ilə haqlı iftixar hissini daha da gücləndirir. Bu gün əminliklə demək olar ki, 100 il əvvəl mühacir həyatı yaşamağa məcbur olmuş Cümhuriyyət qurucularının və onların varislərinin Azərbaycanı müstəqil və qüdrətli dövlət kimi görmək arzuları artıq xoş gerçəkliyə çevrilmişdir.

Dünyada gedən mürəkkəb geosiyasi proseslərə, müharibə və silahlı qarşıdurmalara, qaçqın və məcburi köçkün problemlərinə, qlobal iqtisadi çətinliklərə baxmayaraq, Azərbaycan Respublikası qarşıya qoyduğu böyük məqsədlərə doğru inamla irəliləyir. Ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurların nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilməsi bunu bir daha əyani surətdə sübut edir. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan ötən illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, 10 ən islahatçı dövlət siyahısına daxil edilmişdir. Ölkəmizin təşəbbüsü və yaxından iştirakı ilə irimiqyaslı transmilli layihələr uğurla icra olunmuşdur. 2018-ci ildə Avrasiyanın enerji xəritəsinin zənginləşməsində mühüm rol oynayan "Cənub Qaz Dəhlizi"nin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin istifadəyə verilməsi, həmçinin Ələt-Astara magistral avtomobil yolunun açılışı ilə Azərbaycan ərazisində "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsi üzrə bütün işlərin başa çatdırılması dövlətimizin iqtisadi potensialının artması, regionun tranzit və logistika mərkəzinə çevrilməsi, geoiqtisadi mövqeyinin güclənməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Cari ildə həm də növbəti telekommunikasiya peyki "Azerspace-2"nin orbitə buraxılması respublikamızın müasir rabitə və informasiya texnologiyaları sahəsində qazandığı nailiyyətlərin bariz təzahürüdür.

Ölkəmiz inkişaf etdikcə, daha qlobal xarakterli vəzifələri həll etmək imkanları da artır. Qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş torpaqlarımızın azad olunması kimi taleyüklü vəzifə dayanır. Azərbaycan pozulmuş ərazi bütövlüyünün bərpası yolunda ardıcıl və məqsədyönlü siyasət həyata keçirir. Soydaşlarımız da, öz növbəsində, yaşadıqları ölkələrin yüksək dairələrinin və nüfuzlu beynəlxalq təşkilatların diqqətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldilməsində, tarixi həqiqətlərin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdirməlidirlər. Azərbaycanın inkişafı və dünya birliyində mövqeyini möhkəmləndirməsi üçün hər bir həmvətənimiz ümummilli məqsədlər ətrafında sıx birləşməli, diaspor təşkilatlarının fəaliyyəti daha çevik əlaqələndirilməlidir. Əminəm ki, dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün soydaşlarımız və həmvətənlərimiz bu prinsiplərə əsaslanaraq qarşıdakı illərdə də üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsində qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə səadət, firavanlıq və işlərinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 dekabr 2018-ci il**

***("Xalq qəzeti". 25 dekabr 2018-ci il)***

# VETERANLARLA MÜNTƏZƏM GÖRÜŞLƏR MÜSBƏT ƏNƏNƏYƏ ÇEVRİLİB

Daxili Qoşunlarda son illər formalaşmış müsbət ənənələrdən biri də Daxili Qoşunların Komandanının veteranlarla müntəzəm olaraq görüşlərinin keçirilməsidir. Bu görüşlər veteranlara diqqət və qayğının təzahürüdür. Onların problemlərinə həssas yanaşılması, müraciət etdikləri məsələlərin həllinə köməklik göstərilməsi, bilik və təcrübələrindən istifadə edilməsi veteranların qoşunlarla mənəvi bağlılığını möhkəmləndirən amildir. Təqdirəlayiq haldır ki, veteranlar qoşunların həyatı ilə yaxından maraqlanır, şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsi işində fəal iştirak edirlər. Həmçinin, cəmiyyətdə Daxili Qoşunların ictimai nüfuzunun artırılmasında da veteranlarımızın layiqli töhfələri müsbət nümunə kimi qeyd olunmalıdır. Məhz bütün bu məqamlar nəzərə alınaraq, veteranların qoşunlarla əməkdaşlığına da xüsusi diqqət yetirilir.

Dekabrın 22-də 25031 saylı hərbi hissədə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun qoşunların veteranları ilə növbəti görüşü oldu. Daxili Qoşunların Komandanı veteranları salamlayaraq, hər belə görüşdən məmnunluğunu ifadə etdi. Bildirdi ki, Silahlı Qüvvələr veteranı vəsiqələrinin təqdim olunması ilə yanaşı, Veteran - lar Şurasının geniş tərkibdə görüş keçirilməsi təşəbbüsünü də dəstəkləyib. O, Si - lahlı Qüvvələr veteranı vəsiqələrinin təqdim olunmasının davam etdirildiyini nəzərə çatdırdı. Daxili Qoşunlarda bu işin öncül olaraq və çevik reallaşdırıldığını, ehtiyatda olan hərbi qulluqçuları da əhatə etdiyini xüsusi vurğuladı.

Sonra general-leytenant Ş.Məmmədov əmrlə müəyyən olunmuş qaydada Silahlı Qüvvələr veteranı vəsiqələrini təqdim etdi. O, vəsiqələr verilən veteranları təbrik edərək, onlara xoş arzularını bildirdi. Qeyd etdi ki, Silahlı Qüvvələr veteranı, ümumilikdə, veteran adını daşımaq böyük şərəfdir.



Veteranlar Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısını həmişə hiss edir, bundan fərəhlənirlər. Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov da veteranlarla bağlı məsələləri daim diqqət mərkəzində saxlayır.

Ümumilikdə, veteranlarımız cəmiyyətimizin hörmətli və nüfuzlu üzvləridirlər.

Bu gün şəxsi heyətin qarşısına qoyulan bütün tapşırıqlar əzmlə yerinə yetirilir, hərbi qulluqçularımızın vətənpərvərliyi və peşəkarlığı yüksək səviyyədədir, onlar üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər.

Hərbi hissələrdə mənəvi-psixoloji durum qənaətbəxşdir, nizam-intizamın qorunub saxlanılması və möhkəmləndirilməsinə ciddi fikir verilir. Şəxsi heyətlə tərbiyə işində veteranların da iştirakı təmin olunur. Bunu yüksək qiymətləndirdiyini deyən general-leytenant Ş.Məmmədov, hərbi hissələrin komandanlıqlarına veteranların bilik və təcrübəsindən səmərəli istifadə olunması ilə bağlı tapşırıq verdiyini, hərbi hissələrlə veteranların əlaqələrinin qorunub saxlanılması və inkişaf etdirilməsinin vacibliyini nəzərə çatdırdı.

General-leytenant Ş.Məmmədov öz çıxışında qoşunların həyatı ilə bağlı bir sıra məqamlara da toxundu, ayrı-ayrı xidmət sahələri üzrə mövcud nailiyyətlər və qarşıya çıxan müəyyən çətinliklər barədə danışdı.

Daxili Qoşunların Komandanı Daxili Qoşunların Ali Hərbi Məktəbinin fəaliyyətinin təkmilləşdirilməsi yönündə görülən işlər barədə də veteranlara məlumat verdi. Ali Hərbi Məktəbdə öz təyinatına uyğun olaraq, yeni ixtisasın tətbiq edildiyini bildirdi. Bu yeniliklərin zabitlərin hazırlanmasında nə kimi rol oynayacağına dair fikirlərini bölüşdü.

Daha sonra general-leytenant Ş.Məmmədov veteranların müraciətlərini dinlədi və veteranlar tərəfindən qaldırılan məsələlər barədə aidiyyəti vəzifəli şəxslərə müvafiq göstərişlər verdi.

Daxili Qoşunların Veteranlar Şurasının sədri Çingiz Daşdəmirov belə bir görüşün keçirilməsinə görə veteranlar adından Daxili Qoşunların Komandanına minnətdarlığını bildirdi.

Daxili Qoşunların Komandanı görüşə yekun vuraraq, veteranların ictimai fəaliyyəti, sosial qayğıları, aktual müraciətləri ilə bağlı vacib məsələlərə aydınlıq gətirildiyini bildirdi. Belə görüşlərin davamlı olaraq keçiriləcəyinə diqqət çəkdi.

O, veteranlara vaxt tapıb görüşə gəldiklərinə görə təşəkkür etdi. Onları qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edərək, ailə xoşbəxtliyi, cansağlığı və işlərində uğurlar arzuladı.

Görüşün sonunda xatirə şəkli çəkdirildi.

**Yalçın Abbasov**

# DAXİLİ QOŞUNLAR 2018-ci İLDƏ













Yanvar ayında Daxili İşlər Nazirliyində 2017-ci ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib. Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarına xidmətə yeni qəbul edilmiş əsgərlərin hərbi andiçmə mərasimləri keçirilib. Həmçinin, il ərzində mütəmadi olaraq 25031 saylı hərbi hissədə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının gənc çağırışçılarla görüşləri təşkil olunub.

2018-ci il ərzində Daxili Qoşunların bütün hərbi hissələrinin yaradılmasının ildönümləri təntənəli şəkildə qeyd olunub.

Martın 12-də Azərbaycan Respublikası Daxili İşlər Naziriyi Daxili Qoşunlarının yaranmasının 26-cı ildönümü qeyd olunub. Əlamətdar hadisə münasibətilə Daxili Qoşunların Komandanlığı və bir qrup hərbi qulluqçusu Fəxri Xiyabanda Milli Lider Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib.

Martın 20-də Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Daxili Qoşunların 67987 saylı hərbi hissəsində olub. Daxili İşlər Naziri general-polkovnik R.Usubov və nazir müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov həbi hissənin yeməkxanasında bayram süfrəsində əsgərlərlə birlikdə nahar ediblər.

Daxili İşlər Naziriyi Daxili Qoşunlarının yaranmasının 26-cı ildönümü münasibətilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə qoşunların bir qrup hərbi qulluqçusu mükafatlandırılıb. Bu münasibətlə martın 19-da Daxili Qoşunların Baş İdarəsində mükafatların təqdimolunma mərasimi keçirilib.

Aprelin 22-dən 30-dək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinin, Dayaq rabitə qovşağının, 99713 və 67987 saylı hərbi hissələrinin hərbi qulluqçuları "Formula-1 Azərbaycan Qran Pri" yarışı zamanı xidmətin aparılmasına cəlb olunmuşlar.

Milli Lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə mayın 4-də Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun hərbi hissələrdə mütəmadi olaraq əsgər valideynləri ilə görüşləri keçirilib.

Mayın 25-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə Daxili Qoşunların Baş İdarəsində təntənəli mərasim keçirilib.

Mayın 7-dən 13-dək Qəbələ Atıcılıq Klubunda Milli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş stend atıcılığı üzrə Beynəlxalq Qran Pri yarışı keçirilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasının Daxili İşlər Naziri polis general-polkovniki Kalmuxammed Kasımovun dəvəti ilə 29-31 may tarixlərində bu ölkədə rəsmi səfərdə olub.

İyunun 13-də Daxili Qoşunların Baş İdarəsində 15 iyun-Milli Qurtuluş Gününə həsr olunmuş təntənəli tədbir keçirilib.

İyunun 23-də Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun iştirakı ilə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin ilk buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

İyul ayının 10-da Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın "2018-ci ilin birinci yarımilliyində xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr haqqında" iclası keçirilib.

İl ərzində Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların veteranları ilə görüşlər keçirib.

Avqustun 13-dən 15-dək Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun dəvəti ilə Türkiyə Respublikası Jandarm Qüvvələrinin Baş Komandanı ordu generalı Arif Çetinin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olub. Səfər zamanı Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov ordu generalı Arif Çetinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Avqust ayının 28-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik Bəxtiyar Abdullayevi 60 illik yubileyi münasibətilə təbrik edib. Daxili Qoşunların Baş İdarəsində keçirilən görüşdə Daxili Qoşunların Veteranlar Şurasının sədri Çingiz Daşdəmirov da iştirak edib.

Sentyabrın 15-də Daxili Qoşunların Ali Hərbi Məktəbinə bu il qəbul olunan kursantların təntənəli andiçmə mərasimi keçirilib.

Sentyabrın 28-də Qazaxıstan daxili işlər orqanlarının vahid sisteminə daxil olan Qazaxıstan Respublikası Milli Qvardiyasının Baş Komandanı general-leytenant Ruslan Jaksılıkovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib. Sentyabrın 30-dək davam edən səfər çərçivəsində Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov general-leytenant Ruslan Jaksılıkovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Oktyabrın 2-də Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın Daxili Qoşunların qoşun təsərrüfatının qış mövsümünə hazırlığının vəziyyətinə həsr olunmuş növbəti iclası keçirilib.

Noyabrın 13-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov xidməti ezamiyyətini başa vuran Daxili Qoşunların Komandanının müşaviri polkovnik Mustafa Gezeri, Ali Hərbi Məktəb rəisinin müşaviri polkovnik Hakan Başkayanı və yeni müşavirlər-polkovnik Mustafa Çekiç və polkovnik Ömər Karabulutu qəbul edib.

Dekabrın 7-də Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov 25031 saylı hərbi hissədə qoşunların ehtiyatda olan veteranlarının bir qrupuna Silahlı Qüvvələr veteranı vəsiqələrini təqdim edib.

Dekabrın 8-də Daxili Qoşunların Baş İdarəsində Ulu Öndər Heydər Əliyevin anım mərasimi keçirilib. Mərasimdə millət vəkili Elman Nəsirov iştirak edib.














3_Layout 1 27.12.2018 12:06 Page 1



ŞƏHİDLƏRİMİZ

# DÖYÜŞ SINAĞI MƏRDLİK VƏ LƏYAQƏT MƏQAMIDIR

Həyatda Vətən naminə hər bir fədakarlıq mənəvi ucalıq zirvəsidir və böyük ehtirama layiqdir. Şəhidlərimizin şərəfli ömür yolu bizlərə isbatlayır ki, Vətəni müdafiə etmək, öz xalqını düşmənin hərbi təcavüzündən qorumaq üçün silaha sarılaraq vuruşmaq, bu yolda bütün məhrumiyyətlərə, iztirablara, doğmalardan ayrı düşməyə dözmək, çətin sınaqlardan keçmək, hətta özünü qurban vermək müqəddəs missiyadır. Döyüş meydanlarında həyatını itirən xalqımızın mərd oğulları həmişə qürurla anılacaq. Onlar xalq yaddaşında, hərb tariximizdə silinməz bir iz qoyublar.



ŞƏHİD SİMRAN CUMARTOV

Daxili Qoşunların döyüş yolu "Əsgər" qəzetində ilk dəfə işıqlandırılan şəhid hərbi qulluqçularından biri də əsgər Cumartov Simran Ziyadxan oğludur. Şəhidin ailəsinin bildirdiyinə görə, onun haqqında bu günədək heç bir qəzetdə məqalə dərc edilməyib. Yalnız Tofiq Əliyevin müəllifi olduğu, 2000-ci ildə işıq üzü görən "Sumqayıtın qan yaddaşı" kitabında şəhid haqqında qısa bioqrafik yazı verilib.

Simran Cumartov 1973-cü il sentyabrın 30-da Sumqayıt şəhərində anadan olub. Ziyadxan Cumartov və Xədicə Cumartovanın qurduğu ailədə 5 övlad dünyaya gəlib. Simran ailənin sonbeşiyi idi. O, zəhmətkeş və qayğıkeş bir ailədə böyüyüb. Atası digər övladları kimi, Simranın da tərbiyəsində böyük rol oynayıb, onları mübarizlik və birlik ruhunda yetişdirib, təhsilə və idmana həvəsləndirib. Simran valideynlərinin hörmətini uca tutan, ailə qeyrətini çəkən oğul idi. Sumqayıtdakı 23 nömrəli orta məktəbin rus bölməsində 10 il təhsil alıb. Ailə üzvlərinin dediyinə görə, Simran çoxlu kitab mütaliə edərdi, öz dünyagörüşünü artırmağa çalışırdı, hüquqşünas və tarixçi peşəsinə maraq göstərirdi. Orta məktəb illərində "Burevestnik" idman cəmiyyətində cüdo idman növü ilə məşğul olan Simran müxtəlif yarışlarda mükafatlara da layiq görülmüşdü.

Orta məktəbi bitirdikdən sonra Simran ali təhsil almaq məramı ilə imtahanlara hazırlaşırdı. Ancaq Rusiya Federasiyası Dağıstan Muxtar Respublikasının paytaxtı Mahaçqala şəhərindəki ali təhsil üçün seçdiyi instituta sənəd verməyə gecikən Simranın tələbə olmaq arzusu ürəyində qaldı. S.Cumartov hərbi xidmətə qədər heç yerdə işləməyib. Həmin dövrdə respublikamızda vəziyyət gərgin idi. 1988-ci ilin fevral ayından etibarən ermənilərin ərazi iddiaları üzündən Qarabağ münaqişəsi alovlanmağa başlamışdı. Ermənistanla sərhəd rayonlarında və Dağlıq Qarabağda atəş səsləri kəsilmirdi, yaşayış məntəqələrimiz dağıntılara məruz qalır, soydaşlarımız ermənilərin hərbi təcavüzü nəticəsində qətlə yetirilir, girov götürülür, yerindən-yurdundan didərgin salınırdılar. Terror aktları ara vermirdi, qaçqın və məcburi köçkünlərin ilk dalğası ilə üz-üzə qalmışdıq.

1991-ci ilin oktyabr ayının 18-də respublikamız müstəqillik əldə etdikdən sonra ölkəmizdə ordu quruculuğuna başlandı. Həmin ilin dekabr ayında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının formalaşması yönündə ilk addımlar atıldı.

1991-ci ilin dekabr ayında Sumqayıt Şəhər Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt Şəhər İdarəsi) tərəfindən həqiqi hərbi xidmətə çağırılan S.Cumartov respublikamızın Daxili Qoşunlarının ilk əsgərlərindən biri oldu. O, həmin vaxt qoşunların tərkibində olmuş 6500 saylı hərbi hissədə (1993-cü ilin yanvar ayından Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin tabeliyindədir) hərbi xidmətə başlayıb. Bu hərbi hissədə hərbi andı qəbul edib. Hərbi biletindəki qeydlərdə onun 6-cı bölükdə atıcı vəzifəsində xidmət etdiyi göstərilib. Hərbi hissənin yerinə yetirdiyi vəzifələr əsasən cəzaçəkmə müəssisələrinin mühafizəsi ilə bağlı olub. Belə mürəkkəb vəzifələri yerinə yetirən hərbi hissənin hərbi qulluqçusu kimi üzərinə düşən tapşırıqların icrasına məsuliyyətlə yanaşıb. Şəxsi heyət arasında hörmət qazanıb.

1992-ci ilin fevral ayında yol qəzası nəticəsində atasının həlak olmasından dərin sarsıntı keçirən Simran onun yoxluğu ilə barışa bilməyib. O, atasının nəsihətlərini heç vaxt unutmurdu. Bu nəsihətlərdən ən vacibi Vətəninə layiqli əsgər olmaq, onun şərəfini göz bəbəyi kimi qorumaq idi. Milliyyətcə ləzgi olan Simran azərbaycançılıq əqidəsinə sadiq qalan gənc kimi xatırlanır. Hərbi hissədən buraxılış alıb evə gələrkən bacıları ilə söhbətlərində müharibə mövzusuna da toxunur, ermənilərin törətdikləri vəhşiliklərin cavabsız qalmayacağını vurğulayır, bir əsgər kimi ön cəbhəyə can atdığını açıqca deyirdi. Vətən torpağının işğal olunmasını, qız-gəlinlərin düşmənə əsir düşməsini Simran qeyrətinə sığışdırmırdı. Ancaq anası narahat olmasın deyə, ön cəbhəyə getmək üçün müraciət etməsinin ona deyilməməsini xahiş edirdi.

1992-ci ilin mart ayının 12-dən etibarən Daxili Qoşunlar Ağdam rayonu ərazisində erməni işğalçılarına qarşı döyüşə başlamışdı. S.Cumartovun xidmət etdiyi hərbi hissədən döyüş bölgəsinə şəxsi heyət ilkin mərhələdə müəyyən müddətə ezam olunurdu. Düşmənlə təmas xəttində torpaqlarımızın müdafiəsinə hərbi hissənin ilk göndərilən şəxsi heyəti sırasında onun da olduğu barədə bəzi məlumatlar var. Hərbi xidmətdə olduğu bir neçə ay ərzində Simran qətiyyətli döyüşçü kimi yetişmişdi.

1992-ci ilin iyul ayının əvvəllərində hərbi hissədən Tərtər-Ağdərə bölgəsinə göndərilən və döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunan növbəti birləşmiş hərbi dəstənin tərkibində Simran da vardı. Həmin vaxt ön cəbhənin bu istiqamətində şiddətli döyüşlər gedirdi. Simran həmin istiqamət üzrə düşmənlə təmas xəttində torpaqlarımızın müdafiəsində dəyanətlə vuruşub.

Düşmənin hücumlarının qarşısının alınmasında cəsurluq nümunəsi göstərib. Komandirləri və döyüşçü yoldaşları dəfələrlə təhlükəli anlarda onun əsgəri iradə və cəsarətinin şahidi olublar.




Simranın son döyüşü 1992-ci il iyulun 28-də olub. Hərbi hissənin bəzi hərbi qulluqçularının verdikləri məlumata görə, döyüş tapşırığını yerinə yetirərkən o, yaralanmış döyüşçü yoldaşını atəş altındakı ərazidən çıxarmağa cəhd göstərib, bu zaman özü də düşmənin hədəfinə çevrilib.

1992-ci il avqustun 18-də tərtib edilmiş IV-JQ 321671 nömrəli ölüm haqqında şəhadətnamədə Simranın 28.07.1992-ci il tarixdə Tərtər rayonu ərazisində döş qəfəsinin odlu silah yaralarından həlak olduğu, meyitinin çürüməsi göstərilib. O da məlumdur ki, şəhidin meyiti döyüş baş vermiş ərazidən avqust ayında çıxarılaraq Sumqayıta gətirilib və buradakı Şəhidlər Xiyabanında dəfn olunub.

Hərbi hissənin şəxsi heyətinin siyahısından onun adı 18.08.1992-ci il tarixdə çıxarılıb. Məzarının üzərində şəhidin ölüm tarixi 18.08.1992-ci il, soyadı isə Comərdov (bu ailənin əsl soyadıdır və Sovet dövründə səhvən sənədlərə Cumartov yazılıb) həkk olunub.

Azərbaycan Respublikası Prezidentinin 19 noyabr 1992-ci il tarixli, 321 nömrəli Fərmanı ilə əsgər Cumartov Simran Ziyadxan oğlu respublikamızın suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin olunmasında göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Prezidentinin Fəxri Fərmanı ilə təltif edilib (ölümündən sonra).

Şəhidin anası bir neçə il öncə dünyasını dəyişib. Bacısı Rübabə Cumartovanın oğlu şəhidin adını daşıyır. Simransız keçən ötən illəri kədər içində yaşayan Cumartovlar ailəsi onun xatirəsinin əbədiləşdirilməsi üçün müvafiq işlər görülməsini istəyir. Mən onlara "Əsgər" qəzetinin şəhidlərimizin döyüş yolunun tədqiq olunması və tanıdılması yönündə vacib missiyası barədə danışdım. Düşünürəm ki, qəzet məqaləsi də şəhid ailəsi üçün təskinlik mənbəyi və mənəvi dəstəkdir. Gələcəkdə şəhidlər haqqında yeni kitabın nəşri də nəzərdə tutulur.

Şəhidlər heç vaxt unudulmayacaq, onlar daim qəlbimizdə yaşayırlar.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# ƏFSANƏVİ QƏHRƏMAN MEHDİ HÜSEYNZADƏNİN TARİXİ XİDMƏTLƏRİNİN ÜZƏ ÇIXARILMASINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MÜSTƏSNA ROLU OLUB

Cəsur kəşfiyyatçı, antifaşist müqavimət hərəkatının görkəmli nümayəndəsi, əfsanəvi partizan, milyonlarla azərbaycanlının, eləcə də Mərkəzi və Cənub-Şərqi Avropa xalqlarının qəlbində silinməz izlər buraxmış Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin faşizmə qarşı mübarizədə tarixi xidmətlərinin üzə çıxarılmasında şərəfli ömrünün 25 ilini təhlükəsizlik orqanlarına həsr edən Ulu Öndər Heydər Əliyevin müstəsna rolu olub. Bütün maneələrə baxmayaraq, Mehdi Hüseynzadəyə layiq olduğu Sovet İttifaqı Qəhrəmanı fəxri adının ölümündən 13 il sonra verilməsi, ümumiyyətlə, "Mixaylo"nun adının əbədiləşdirilməsi, onun göstərdiyi şücaət və rəşadətin təbliği də məhz Milli Liderin ölçüyəgəlməz fəaliyyətinin nəticəsidir.



Dövlət Təhlükəsizliyi Xidmətinin arxiv fondlarında qorunub saxlanılan nadir sənədlərin tədqiqi göstərir ki, Azərbaycan SSR DTK-da yaradılmış və Heydər Əliyevin rəhbərlik etdiyi xüsusi əməliyyat-təhqiqat qrupunun böyük əziyyət və peşəkarlıqla topladığı materiallar, sorğular, rəylər və şahid ifadələri əsasında 1957-ci ilin yanvarında Mehdi Hüseynzadənin döyüş və qəhrəmanlıq fəaliyyətinə dair müfəssəl və təsirli arayış hazırlanıb. Azərbaycan SSR DTK həmin sənədə baxılması və Moskvaya təqdim olunması üçün Azərbaycan KP MK-ya göndərib.

Bundan sonra Mehdi Hüseynzadənin qəhrəmanlıq salnaməsinin ictimailəşdirilməsində əvəzsiz xidmətləri olan Heydər Əliyevin uzun illər ağır zəhməti hesabına toplanılan materiallar əsasında tanınmış yazıçılar İmran Qasımov və Həsən Seyidbəyli "Uzaq sahillərdə" povestini yazıblar. Həmin əsər əsasında bu gün də maraqla izlənilən məşhur "Uzaq sahillərdə" bədii filmi çəkilib. Nəhayət, 1957-ci ilin aprelində SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verilib.

Ulu Öndər Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərlik edərkən yenidən Mehdi Hüseynzadənin xatirəsinin əbədiləşdirilməsi istiqamətində əməli işlər görüb, onun şərəfli xidmətlərinin İttifaq miqyasında tanınmasına nail olub və Bakıda möhtəşəm abidəsinin ucaldılmasına göstəriş verib. 1973-cü il mayın 9-da - Qələbə Günündə Mehdi Hüseynzadənin abidəsinin təntənəli açılışı olub. Tədbirdə iştirak edən dahi rəhbər Heydər Əliyev qəhrəmanın partizan hərəkatındakı fəaliyyətindən, keçdiyi mübariz döyüş yolundan söz açaraq deyib: "Mehdi Hüseynzadənin adı müasirlərimizin və gələcək nəsillərin hafizəsindən heç vaxt silinməyəcək".

Milli Liderin dövlətçilik siyasətinin və azərbaycançılıq irsini uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev görkəmli sərkərdələrimizin, hərb xadimlərimizin, qəhrəmanlarımızın adlarının əbədiləşdirilməsinə və yubileylərinin dövlət səviyyəsində qeyd olunmasına xüsusi diqqət yetirir.

Prezident İlham Əliyevin Sloveniya Respublikasına rəsmi səfəri zamanı Novo Qoritsa şəhərində Mehdi Hüseynzadənin xatirə muzeyinin açılışında iştirakı, ictimaiyyətlə görüşdə geniş nitq söyləməsi ölkələrimiz arasında əlaqələrin genişlənməsini, dostluq və qardaşlıq münasibətlərinin inkişafını təsdiq edir. Məhz bu dostluğun təməlində Mehdi Hüseynzadə kimi igid həmvətənimizin qəhrəmanlıqları dayanır. Sloveniyalılar da Azərbaycanın igid oğluna vəfa borcu olaraq Moribor şəhərində müharibə qurbanlarının xatirəsinə həsr edilən Dobrava memarlıq park kompleksinin ərazisində Xocalı soyqırımı qurbanlarına xatirə lövhəsi ucaldıblar.

Yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçı Mehdi Hüseynzadənin qəhrəmanlıqlarının gənc nəslin Vətənə sədaqət ruhunda tərbiyə edilməsində xüsusi əhəmiyyətini nəzərə alan dövlətimizin başçısı İlham Əliyev igid döyüşçünün anadan olmasının 100-cü ildönümünün qeyd edilməsi barədə 2018-ci il iyulun 23-də sərəncam imzalayıb.

Bu sərəncam dövlətimizin təhlükəsizliyinin, Vətənimizin sərhədlərinin toxunulmazlığının keşiyində dayanan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan Azərbaycan hərbçiləri üçün qəhrəmanlığa çağırış nümunəsi kimi qəbul edilir.

***("Xalq qəzeti"nin 288 nömrəli, 21 dekabr 2018-ci il tarixli sayında dərc edilən məqalədən ixtisarla)***

# GƏNC NƏSLİN MİLLİ MƏNLİK ŞÜURUNUN VƏ VƏTƏNPƏRVƏRLİK HİSSLƏRİNİN İNKİŞAFI MƏQSƏDİLƏ MÜHÜM ADDIMLAR ATILIR

Vətənpərvərlik emosiya və hisslərlə bağlı olduğundan bu hisslərin tərbiyəsi hər bir dövlət və cəmiyyət üçün vacibdir. Təbii ki, modernləşmə və qloballaşma şəraitində vətənpərvərlik hissinin fərqli xüsusiyyətləri meydana çıxır. Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində və - tənpərvərlik bir qədər başqa mahiyyət daşıyırdı. O zaman Milli Liderin zəkası və iradəsi, həmçinin, şəxsi vətənpərvərlik nümunəsi sayəsində vətəndaşları Vətəni və dövləti qorumaq ideyası ətrafında birləşdirmək lazım idi. Üstündən qısa bir zaman ötməmiş vətənpərvərlik hissinin yeni ideya ətrafında tərbiyə olunması məsələsi zərurətə çevrildi. Bu isə Azərbaycanın ərazi bütövlüyünün qorunması və dövlətimiz haqqında əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasından ibarət idi. Etiraf edilməlidir ki, bu sahədə də qurulan təbliğat və maarifləndirmə işləri öz müsbət nəticələrini verməkdədir.

Bizim üçün ən qiymətli dəyər - müstəqil dövlətimizdir. Belə bir məqamda gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi istiqamətində mühüm addımlar atılır. Hazırda gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin artırılmasında ölkədə fəaliyyət göstərən gənclər təşkilatlarının rolu danılmazdır. Əksəriyyət təşkilatların bu sahədə həyata keçirdiyi layihələr, tədbirlər müsbət nəticələrini verir. Buna baxmayaraq, məsələyə bir az geniş aspektdən yanaşmaq tələb olunur. Bu aspekt gənclər siyasətinin strateji bölməsidir ki, onun da əsası Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulub. Məhz bundan sonra gənclərlə bağlı həyata keçirilən bütün islahatların hər birində milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi məsələsi hər zaman prioritet olub. Hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilən siyasət gənclərin milli şüuru və vətənpərvərlik hissinin formalaşmasında əvəzsiz rol oynayır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Elm Fondu, Bilik Fondunun təsis edilməsi gənclərin vətənpərvərlik hissinin yüksəlməsi sahəsində geniş imkanlar yaradıb. Bütün yaradılan bu imkanların qayəsində milli mənlik şüurunun inkişaf etdirilməsi dayanır.

Müstəqil dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri isə yalnız öz vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər. Respublikanın əksər gəncləri vətən qarşısında öz vətəndaşlıq borclarını layiqincə başa düşür, onun qorunmasında və milli dövlətçilik quruculuğunda fəal iştirak edirlər. Bununla belə, son dövrlərdə bəzi gənclərdə vətənpərvərlik və milli ləyaqət hisslərinin zəif olması hallarına təsadüf edilir. Vətənin taleyinin təhlükə altında olduğu, onun bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin getdiyi bir zamanda xalqın vətəni qorumağa qadir, mərd, sadiq gənclərə böyük ehtiyacı var. Buna görə də gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədəuyğun və sistemli iş aparılmalıdır. Vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır. Vətənin tərəqqisi naminə çalışmaq üçün gənclərin müəyyən sənətə, peşəyə sahib olması, dövlət quruculuğunda fəal iştirak etməsi, yüksək peşəkarlığa, təhsilə və elmə yiyələnməsi, geniş dünyagörüşünə malik olması, əməyi sevməsi və onunla məşğul olması və təşəbbüskarlığı vacibdir. Vətənin maddi və mənəvi sərvətlərini qorumaq, iqtisadi qüdrətinin yüksəlməsinə nail olmaq, həmçinin, azərbaycançılıq və yurdsevərlik ideyalarının gənclər arasında təbliğ olunması mühümdür. Azərbaycanımız üçün əsl vətəndaş yetişdirmək, böyük gələcəyimiz naminə ən mühüm vəzifə kimi təhsilimizin və mədəniyyətimizin qarşısında durur. Dövlətçilik, vətəndaşlıq təkcə orta məktəb dərsliklərində və ya hansısa əyani vasitələrdə əks olunmalı deyil, bütün sahələrdə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidir.

***olaylar.az***

4_Layout 1 27.12.2018 12:08 Page 1



# HƏRBİ HİSSƏ ÜZRƏ BİRİNCİLİYİ QAZANAN BÖLMƏ

***12318 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsi cari ilin ümumi inspeksiya yoxlamasının nəticələrinə görə bütün bölükləri üstələyərək hissə üzrə birinciliyi qazanıb. Yaxın günlərdə bu hərbi hissədə xidməti ezamiyyətdə olarkən sözügedən bölmənin fəaliyyətilə tanış olaraq bu haqda "Əsgər" qəzetinin növbəti sayı üçün material hazırlamaq qərarına gəldim.***

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Nəriman İsayevlə səmimi söhbət əsnasında məlum oldu ki, xüsusi vasitələrin tətbiqi bölməsinin qazandığı bu nailiyyət heç də ilk deyil. Artıq 2016-cı ildən etibarən üç il sərasər yekun yoxlamanı əla və yaxşı qiymətlərlə başa vuran şəxsi heyət 2018-ci ildə də daha yüksək balla liderliyi saxlaya bilib.

Bölmələrin döyüş hazırlığının əsas səbəbləri kimi şəxsi heyətin döyüş təliminin metodik cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumun yüksək olması, hərtərəfli təminatın mövcudluğunu qeyd edən bölmə komandiri kapitan Mustafa Nəzərov qarşıya qoyulacaq tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə hazır olduqlarını bildirdi. Əlavə etdi ki, bölməyə təhkim olunmuş döyüş texnikasının, sursatların və digər əmlakların vəziyyətinin daima diqqətdə saxlanılması, daxili qayda-qanuna riayət edilməsi də bu istiqamətdə əsas amillərdən biridir.

Tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq və ixtisas hazırlığından məşğələlər təşkil olunur. Məşğələlərin keçirilməsində qrup və yarımqrup komandirlərinin biliklərinin hərbçilər tərəfindən dərindən qavranılması prosesi əsas götürülür. Əsasən atəş hazırlığından, fiziki hazırlıqdan, Daxili Qoşunların taktiki hazırlığından və ixtisas hazırlığından yüksək nəticələr əldə edən hərbi qulluqçular döyüş hazırlığının qorunub saxlanılması istiqamətində öz üzərilərində durmadan çalışırlar. Şəxsi heyətin peşəkarlıq vərdişlərinin artırılması və eyni zamanda istənilən şəraitdə qarşıya çıxan döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə gecə təlimləri keçirilir. Bölmə komandiri şəxsi heyətin biliklərini və praktiki vərdişlərini şəxsən yoxlayır, hərbi qulluqçuların düzgün yerləşdirilməsini, ciddi daxili qayda-qanunun olmasını, İntizam Nizamnaməsi tələblərinə riayət edilməsini nəzarətdə saxlayır. Bölmənin qruplarında olan silahların, xüsusi silahların, xüsusi vasitələrin, texnikanın material hissələrini, qorunub saxlanılmasını və onlardan düzgün istifadə edilməsi qaydalarını bilmək və sayını, vəziyyətini, döyüşə hazırlığını, onların uçotunun aparılmasını şəxsən yoxlamaq bölmə komandirinin funksional vəzifələrinə aiddir.



Həmçinin, tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan kapitan M.Nəzərov bölmənin şəxsi heyətilə yüksək nizam-intizama nail olmaq və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi. Bu işdə bölmə komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Sahil Şərbətovun əməyini xüsusilə vurğulamaq lazımdır. O, hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksəldilməsi istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Bunun nəticəsidir ki, bu günə kimi hərbi qulluqçular arasında hər hansı kobud intizam pozuntusuna yol verilməyib. Təbii ki, döyüş hazırlığından danışarkən mütləq mənada mənəvi-psixoloji durumun qənaətbəxş olmasının vacibliyini hər birimiz bilirik.

Eyni zamanda, müvafiq əmr və direktivlərin tələblərinə əsasən, döyüş hazırlığının yüksəldilməsi üçün hərbi qulluqçu-ların keçirilən məşğələlərdə tam tərkibdə iştirakını və məşğələlərin mövzularının dərindən mənimsənilməsinə baş leytenant S.Şərbətov nəzarət edir.

Şəxsi heyət arasında fəal hərbi qulluqçular vardır ki, onlar bölmənin daim irəlidə olması üçün qrup və yarımqrup komandirlərinə yaxından köməklik göstərirlər. Baş çavuş Vüsal Hüseynli və Həbib Babayevin, əsgər Sənan Soltanovun adlarını qeyd edən bölmə komandirinin tərbiyə işləri üzrə müavini bu cür hərbi qulluqçuların sıralarımızda xidmət etdiyi üçün qürur duyduğunu da sözlərinə əlavə etdi.

Hərbi xidmətdə daim əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi bölməsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə, qarşıya qoyulan tapşırıqların icrası zamanı təşəbbüskarlıq göstərəcəyinə əminlik ifadə edən baş leytenant S.Şərbətov xidmətin uğurlu təşkili üçün yaradılmış hərtərəfli şəraitə görə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanına dərin minnətdarlığını ifadə etdi.

**baş leytenant Nigar Ağayeva**

# İDMAN UĞURLARIMIZ DAVAM EDİR

Daxili Qoşunların İdman Komandasının hərbi qulluqçularının əldə etdiyi nailiyyətlər sırasına daha biri əlavə olunub.

Belə ki, dekabr ayının 14-dən 17-dək Rusiya Federasiyasında idmanın boks növü üzrə Dünya kuboku uğrunda beynəlxalq yarış keçirilib.

Yarışda Daxili Qoşunların İdman Komandasının hərbi qulluqçusu da qüvvəsini sınayıb. Əsgər Məsud Yusifzadə (52 kq.) keçirdiyi üç görüşdə bolqar, fransız və özbəkistan idmançılarını üstələməyi bacarıb. Finala gedən yolda idmançımız cüzi xal fərqi ilə rusiyalı rəqibinə məğlub olaraq 3-cü yeri tutub.



Fəxri kürsünün üçlüyünə daxil olan əsgər M.Yusifzadə medal və diplomla mükafatlandırılıb.

Məlumat üçün bildirək ki, ötən ay keçirilən boks üzrə Respublika çempionatında hərbi qulluqçumuz 1-ci yerə layiq görülüb.

**kapitan T.Əlizadə**

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ ALİ HƏRBİ MƏKTƏBİNƏ 2019/2020-Cİ TƏDRİS İLİ ÜÇÜN TƏLƏBƏ QƏBULU QAYDALARI



***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış sinfində oxuyan və ya tam orta təhsilli, qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları (yalnız oğlanlar) sırasından seçilirlər.***

Namizədlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi-həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma - 6 dəfə; qaçış - 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə; qolların üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi - 18 dəfə, gövdənin döşəmədən qaldırılıb-endirilməsi - 18 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanlarında iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasına göndərilir.

***İmtahanlar test üsulu ilə, 3-cü ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.***

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunmuş şəxslər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Məktəbdə tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

***Məktəbi müvəffəqiyyətlə bitirmiş məzunlara "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası və "Leytenant" hərbi rütbəsi verilərək, Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər.***

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2019-cu ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul edilmirlər.

***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul üçün namizədlər Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinə (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi 4 ) aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:***

*- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında arayış və ya tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- yaşayış yeri üzrə tibb müəssisəsindən sağlamlıq haqqında arayış;*

*- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*- oxuduğu təhsil müəssisəsi tərəfindən verilmiş xasiyyətnamə;*

*- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

***Ərizə və sənədlərin qəbulu 2019-cu il martın 1-dən aprelin 10-dək (bayram və bazar günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcək.***

***Məlumat üçün əlaqə telefonları: (012)-590-65-07, (012)-560-27-00.***

# MADDİ-TEXNİKİ TƏDRİS BAZASINA VƏ KÜTLƏVİ İDMAN İŞİNƏ BAXIŞ-MÜSABİQƏ KEÇİRİLİB

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, noyabr ayının 1-dən 30-dək Ali Hərbi Məktəb və hərbi hissələrdə maddi-texniki tədris bazasına və kütləvi idman işinə baxış-müsabiqə keçirilib. Döyüş təliminin, maddi-texniki tədris bazasının vəziyyəti, təkmilləşdirilməsi yönündə görülən işlər, eləcə də hərbi hissələrdə kütləvi idman işinin vəziyyəti yoxlanılıb, hərbi qulluqçular hərbi-idman kompleksi normativlərinin yerinə yetirilməsinə cəlb ediliblər.

Baxış zamanı müəyyən olunub ki, 25033, 12318, 17074, 16077 və 16073 saylı hərbi hissələrdə maddi-texniki tədris bazasının yaradılması və təkmilləşdirilməsi üzrə bir çox işlər görülüb, döyüş təlimi fənləri üzrə siniflər, müxtəlif təlim şəhərcikləri hazırlanıb.

Bununla yanaşı, kütləvi idman işi üzrə tədbirlər 12318, 25033, 99713, 67987 və 16075 saylı hərbi hissələrdə daha mütəşəkkil təşkil olunub, bölmələr arasında fiziki hazırlıq üzrə normativlərin yerinə yetirilməsində qeyd olunan hərbi hissələrin xüsusi təyinatlı və xüsusi vasitələrin tətbiqi dəstələrinin, o cümlədən, 25033 saylı hərbi hissənin ayrı yerləşən əməliyyat taborunun şəxsi heyəti yüksək nəticələr göstərib.

İl ərzində Daxili Qoşunların birinciliyi uğrunda keçirilən yarışlara 99713 və 16075 saylı hərbi hissələrin yığma komandaları daha yaxşı hazırlaşdıqlarına görə yüksək nəticələr əldə ediblər.

Ümumilikdə, baxış-müsabiqənin nəticələrinə görə yerlər aşağıdakı kimi müəyyən olunub:

**Maddi-texniki tədris bazasına baxış üzrə:**

I yer - 25033 saylı hərbi hissə;
II yer - 17074 saylı hərbi hissə;
III yer - 12318 saylı hərbi hissə.

**Kütləvi idman işinə baxış üzrə:**

I yer - 12318 saylı hərbi hissə;
II yer - 25033 saylı hərbi hissə;
III yer - 67987 saylı hərbi hissə.

**Əməliyyat və döyüş hazırlığı İdarəsinin rəisi VİE**
**polkovnik Vurğun Abbasov**

*Metodiki vəsait*

# YOL-NƏQLİYYAT HADİSƏLƏRİ, ONLARIN SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİNİN TƏSNİFATI

**(əvvəli ötən sayımızda)**

Yol-nəqliyyat hadisələri müxtəlif əsaslara görə təsnifləşdirilir.

Nəticəsinin ağırlığına görə yol-nəqliyyat hadisələri üç qrupa bölünür:

- ölümlə nəticələnən;
- xəsarətlə nəticələnən;
- maddi ziyanla nəticələnən.

Məhkəmə-tibbi təsnifata görə, insanların bədən xəsarətləri 3 qrupa bölünür:

- yüngül,
- az ağır
- ağır.

Başvermə mexanizminə görə yol-nəqliyyat hadisələri aşağıdakı növlərə bölünür:

1. Piyadanın vurulması - hərəkətdə olan nəqliyyat vasitəsinin hərəkət hissəsində, yaxud yol çiynində olan insanı vurması və ya insanın hərəkətdə olan nəqliyyat vasitəsinə dəyməsi, yaxud daşınan yükün (məsələn, konteyner, tros, taxta və s.) nəqliyyat vasitəsindən düşməsi və ya qabaritindən kənara çıxması nəticəsində insanın zərər çəkməsi hadisəsidir. Xizəkdə, kirşədə, diyircəkli arabada, mühərriksiz əlil arabasında hərəkətdə olan insanın, üçtəkərli velosipeddə hərəkətdə olan uşağın vurulması piyadanın vurulmasına aiddir.

2. Velosipedçinin vurulması - hərəkətdə olan nəqliyyat vasitəsinin velosipedçini vurması və ya velosipedçinin hərəkətdə olan nəqliyyat vasitəsinə dəyməsi hadisəsidir.

3. Maneənin vurulması -hərəkətdə olan nəqliyyat vasitəsinin tərpənməz predmeti (məsələn, körpünün dayağı, dirək, ağac, çəpər, inşaat materialları yığını və s.) vurması, yaxud dəyməsi hadisəsidir. Avtobusun bordür daşına dəyməsi nəticəsində salonda olan sərnişinin yıxılıb xəsarət alması maneənin vurulmasına aid edilir.

4. Dayanmış nəqliyyat vasitəsinin vurulması - hərəkətdə olan nəqliyyat vasitəsinin dayanmış nəqliyyat vasitəsini vurması hadisəsidir.

5. At arabasının vurulması - hərəkətdə olan nəqliyyat vasitəsinin heyvan qoşulmuş arabanı, yaxud at-araba nəqliyyatını vurması və ya heyvan qoşulmuş arabanın, yaxud at-araba nəqliyyatının hərəkətdə olan nəqliyyat vasitəsinə dəyməsi hadisəsidir.

6. Mal-qaranın vurulması - hərəkətdə olan nəqliyyat vasitəsinin çöl, yaxud ev heyvanlarını, quşları vurması və ya heyvanların, yaxud quşların hərəkətdə olan nəqliyyat vasitəsinə dəyməsi, nəticədə insanların xəsarət alması, maddi ziyan vurulması hadisəsidir.

7. Nəqliyyat vasitələrinin toqquşması - hərəkətdə olan nəqliyyat vasitələrinin bir-birilə, yaxud dəmiryol xətti ilə hərəkət edən qatarla və ya qəflətən dayanmış nəqliyyat vasitəsilə (məsələn, nasazlıq yaranan halda, svetoforun qırmızı işığında, qəflətən yaranmış maneənin qarşısında və s.) toqquşması hadisəsidir. Toqquşma qarşı-qarşıya, eyni istiqamətli, çarpaz olur.

8. Nəqliyyat vasitələrinin aşması - hərəkətdə olan nəqliyyat vasitəsinin aşması hadisəsidir. Aşma əlverişsiz hava şəraitinin təsiri, texniki nasazlıq, yükün qeyri-bərabər yerləşdirilməsi və düzgün bərkidilməməsi, yol hərəkəti qaydalarının pozulması nəticəsində baş verir.

9. Sərnişinin yıxılması - hərəkətdə olan nəqliyyat vasitəsindən sərnişinin yıxılması, yaxud əgər bu başqa növ yol-nəqliyyat hadisəsinə aid edilə bilmirsə, kəskin tormozlama, sürətlənmə, hərəkət istiqamətini dəyişmə və s. nəticəsində sərnişinin salonda yıxılması hadisəsidir.

10. Digər hadisələr - yuxarıda göstərilənlərə aid olmayan hadisələr: daşınan yükün, təkərdən çıxan əşyanın insan, heyvan, yaxud başqa nəqliyyat vasitəsinin üstünə düşməsi, qəflətən peyda olan (meydana çıxan) maneəni (düşən yük, ayrılmış təkər və s.), hərəkət iştirakçısı olmayan şəxsi vurması və s.

**DQBİ- də Avtomobil və zirehli texnika şöbəsinin rəisi**
**polkovnik Fuad Alıyev**

## Allah rəhmət eləsin

25031 saylı hərbi hissənin komandanlığı mayor Musa Süleymanova **bacısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000